# Vətəndaşlarla səyyar görüş-qəbullar keçirilib

## Abrıx kəndi

***RİH-nin başçısı Səbuhi Abdullayevin yaşayış məntəqələrində keçirilən görüş-qəbulları sakinlər tərəfindən rəğbətlə qarşılanır. Bu tədbirlərin əsas məqsədi Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən irimiqyaslı quruculuq işlərinin, sosial-iqtisadi inkişafın bütün sahələri üzrə əldə olunan nailiyyətlərin, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən tədbirlərin təbliğ edilməsi, eləcə də bu istiqamətdə Qəbələ rayonunda icra edilən sosial layihələr və görülən işlər barədə əhaliyə geniş məlumatın verilməsi, vətəndaşların müraciətlərinin dinlənilməsi, onların irəli sürdükləri təkliflərin həll olunmasıdır.***





Oktyabrın 10-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Abrıx kənd sakinləri ilə səyyar görüş-qəbulu keçirilib. Tədbirdə rayonun hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edib.

Görüş-qəbulda çıxış edən Səbuhi Abdullayev rayonun bütün yaşayış məntəqələrində, o cümlədən Abrıx kəndində də sosial-iqtisadi sahədə görülən işlər barədə ətraflı məlumat verib. RİH başçısı son illərdə kənddə 240 yerlik yeni məktəb binasının və icra nümayəndiliyi üçün inzibati binanın tikildiyini, yaşayış məntəqəsini rayon mərkəzi ilə birləşdirən yolun müasir qaydada yenidən qurulduğunu və asfalt örtük çəkildiyini, həmin yolda Qaraçay üzərində 220 p/metrlik, 11 aşırımlı körpünün inşa edildiyini, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchizatı vəziyyətinin yaxşılaşdırıldığını bildirib və ərazidə həyata keçirilən digər mədəni-quruculuq işlərindən danışıb.



Səbuhi Abdullayev son illər rayonda sahibkarlığın inkişafına verilən dövlət dəstəyi hesabına Abrıx kənd inzibati ərazi dairəsində də müəyyən işlərin görüldüyünü, xüsusilə kənd təsərrüfatı sahəsində bu işlərin daha da intensivləşdiyini və ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan güzəştlərdən, ayrılan subsidiyalardan səmərəli istifadə olunmasına diqqətin artmasının yaxşı hal olduğunu, bunun hesabına əkin sahələrinin genişləndiyini, daha çox kənd sakininin işə cəlb olunmasına yeni imkanların yarandığını diqqətə çatdırıb. İcra başçısı sadaladığı işlərin daha da sürətlənəcəyinə əminliyini ifadə edərək kənd sakinlərini bu sahədə fəal olmağa səsləyib.

Görüşdə çıxış edən kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Kənd ictimaiyyətinin nümayəndələri çıxışlarında əraziyə təbii qaz və telefon xətlərinin çəkilməsini, Qaraçayın sağ sahilində beton bəndin inşa edilməsini, yaşayış məntəqəsində artezian quyusunun qazılmasını xahiş ediblər.

Səbuhi Abdullayev görüşdə səsləndirilmiş təkliflərlə bağlı aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırılacağını bildirib və digər müraciətlərlə əlaqədar məsul şəxslərə konkret tapşırıqlar verib.

## Solquca kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin əhali ilə növbəti görüş-qəbulu oktyabrın 16-da Solquca kəndində keçirilib. Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə və digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



Görüşdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ölkə Prezdenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə gedən quruculuq-abadlıq işlərindən, iqtisadi və sosial sahədə əldə olunan uğurlardan danışıb. Qeyd olunub ki, ölkədə gedən geniş quruculuq işlərini Qəbələnin, o cümlədən rayonumuzun bütün kəndlərinin timsalında görmək mümkündür. Bildirilib ki, son illər sosial-iqtisadi sahədə rayonumuzda aparılan işlərin fonunda Solquca kəndində də bir sıra işlər görülüb. Belə ki, kənddə inzibati ərazi nümayəndəliyi yaradılıb, nümayəndəlik üçün yeni inzibati bina tikilib, kənd ibtidai məktəbi ümumi orta məktəbə çevrilib və bu təhsil müəssisəsi üçün müasir standartlara cavab verən məktəb binası inşa edilərək istifadəyə verilib. RİH başçısı qeyd edib ki, bu ilin noyabr ayında ərazidə elektrik xətlərinin dəyişdirilməsinə və yeni transformatorların quraşdırılması işlərinə başlanacaqdır. Gələn il isə yaşayış məntəqəsinin sel sularından mühafizəsi məqsədi ilə Qaraçayın sağ sahilində sahilbərkitmə tədbirləri həyata keçiriləcək, beton mühafizə bəndinin tikilməsi üçün aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılacaqdır.

Sonra görüş-qəbulda iştirak edən kənd sakinləri dinlənilib.

Onlar son illər rayonda və kəndlərdə görülmüş böyük quruculuq işlərinə və kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən qayğının artırılmasına görə ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.



Çıxış edən vətəndaşlar kənd ümumi orta məktəbinin tam orta məktəbə çevrilməsi, Solquca-Mıxlıqovaq yolundakı Qaraçay üzərində körpünün tikilməsi ilə bağlı təkliflər verib və digər fərdi xarakterli müraciətlər ediblər.

Görüş-qəbulda Səbuhi Abdullayev tərəfindən təklif və müraciətlərin qanunamüvafiq qaydada icra olunması üçün aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verilib, bir qismi isə yerindəcə həll olunub.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**